*AMEA Müqayisəli ədəbiyyatşünaslıq, 2023, № 1* *ISSN 2663-4414*
*Səhifə: 18-24* *E-ISSN 2709-0762*
*https://doi.org/10.59849/2663-4414.2023.1.18*

# SMAQUL ELUBAYIN "AĞ ÇADIR" ROMANINDA KOSMOS-XAOS ƏVƏZLƏNMƏSİ

**Mehman Həsənli**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: m.hasanli@lit.science.az
ORCİD: https://orcid.org/0000-0003-3036-2646

**Xülasə.** 1980-ci illər qazax romançılığının tarixində janr transformasiyası baxımından əhəmiyyətli bir dövr kimi xarakterizə olunmaqdadır. Yenidənqurma siyasəti və imperiyanın çöküşünün labüdlüyünün meydana çıxardığı yeni tarixi situasiya ədəbiyyatı, xüsusən də romançılığı yeni dəyişmə mərhələsinə qədəm qoyması üçün ciddi əsaslar yaratmışdır. Smaqul Elubayın "Ağ çadır" romanı bu dövr qazax romançılığındakı forma və məzmun baxımından dəyişməni göstərən əhəmiyyətli nəsr nümunələrindən biridir. Bu romanda 1928-1933-cü illərdə Qazaxıstanda baş verən aclıq və onu yaradan səbəblər bədii planda təsvir edilmişdir. Yazıçı böyük ustalıqla aclığın səbəb və nəticələrini göstərmiş, ideoloji təsisatlarını sərt şəkildə yeritməyə başlayan sovet hökümətinin naqisliklərini göstərmişdir. Məqalədə sovet imperiyasının mövcud idarəetməni dəyişməsinin xaosa və nəticədə aclığa səbəb olması və əvvəlki bəylik sistemi ilə yeni qurulan bolşevik sisteminin qarşıdurmasını və nizamsızlığın, xaosun nizam, kosmos üzərində qələbəsi tədqiqata cəlb edilmişdir. Araşdırmada Fəxrəddin bəy və onun ağ çadırı kosmosu, Şarip və digərlərinin təlim aldığı bolşeviklərin qızıl çadırı isə xaosun timsalı kimi öyrənilmişdir. Smaqul Elubayın "Ağ çadır" romanı 1980-ci illər qazax ədəbiyyatında, ümumilikdə, türk xalqları nəsrində yeni təmayüllərin yaranmasında mühüm rol oynamışdır.
**Açar sözlər:** Smaqul Elubay, "Ağ çadır", roman, xaos, kosmos

**Məqalə tarixçəsi:** göndərilib – 06.04.2023; qəbul edilib – 20.04.2023

# COSMOS-CHAOS REPLACEMENT IN SMAGUL YELUBAY'S NOVEL "AK BOZ UY"

**Mehman Hasanli**
Doctor of Philosophy in Philology, associate professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: m.hasanli@lit.science.az
ORCİD: https://orcid.org/0000-0003-3036-2646

**Abstract.** The 1980s are characterized as an important period in terms of genre transformation in the history of Kazakh novels. The new historical situation brought about by the politics of reconstruction and the necessity of the collapse of the empire created serious grounds for entering a new stage of change in the literature, especially the novel. Smagul Elubay's novel "Ak Boz Uy" is one of the significant examples of prose that shows the change in terms of form and content in Kazakh novels of this period. In Smagul Elubay's novel "Ak Boz Uy", the famine that occurred in Kazakhstan in 1928-1933 and its causes are described. The writer skillfully showed the causes and consequences of the famine and pointed out the shortcomings of the Soviet government, whose ideological institutions

were just being established. In the article, chaos and famine caused by the Soviet empire replacing the current administration, and the conflict between the previous system of bay and the newly established Bolshevik system, and the victory of disorder, chaos over order and space. Fakhreddin bey and his white tent were studied as a symbol of space, and the golden tent of the Bolsheviks, where Sharip and others were trained, was studied as a symbol of chaos. Smagul Elubay's novel “Ak Boz Uy” played an important role in the emergence of new tendencies not only Kazakh literature of the 1980s, and in the prose of all Turkic peoples in general.
**Keywords:** Smagul Yelubay, “Ak Boz Uy”, novel, chaos, cosmos

**Article history:** received − 06.04.2023; accepted − 20.04.2023

## Giriş / *Introduction*

Bolşevikərin hakimiyyətə gəlməsi ilə qurulan yeni sovet imperiyası mövcud olduğu 70 il müddətində nəzarətində olan və ya ideologiyalarını yaya bildikləri geniş coğrafiya sayəsində dünyanın bir qütbünə çevrilə bildilər. Nəhəng imperiya maşını bir çox hallarda zor gücünə nəzarətində saxladığı əraziləri və orada yaşayan müxtəlif dinə, mill-etnik kimliyə malik olan xalqları idarə etmək üçün ideoloji təsisatlar qurmağa və bəzən amansızcasına həmin təsisatlardan irəli gələn məsələləri tətbiq etməyə məhkum idi. 1920-ci illərə qədərki nisbi fikir və düşüncə azadlığı, xalqların milli-etnik kimliklərinə, inanc sistemlərinə bağlılığı bir dünya müharibəsindən çıxan və ikincinin olma ehtimalının yaxınlaşdığı bir ərəfədə imperiya rəhbərliyi üçün heç də uyğun situasiya deyildi. Məhz bu səbəbdən 1930-cu illərin başlanğıcından etibarən amansız tədbirlərə əl atmağa başlandı. Bu prosesin zirvəsini 1937-ci ildə başlanan və milyonlarla insanın ölümünə səbəb olan repressiya təşkil etmişdir. Keçmişini və qədimdən qalanları inkar edən, oktyabr inqilabını həyatın başlanğıcı sayan, mümkün qədər ateizmi yayaraq, bütün inancları inkar etməyə çalışan nəsil formalaşdırmağa başlandı. Çingiz Aytmatov bu cəhdləri çox sonralar, 1980-ci ildə yazmış olduğu “Gün var əsrə bərabər” romanında manqurtlaşma adlandırdı. *“Yazıçı kökdən uzaqlaşmanı, milli kökə, tarixi kimliyə özgələşməyi manqurtluq hesab edir. Sovet imperiyasının qurulduğu ilk illərdən başlayaraq digər xalqlarla bağlı məqsədi xalqın keçmişinə qənim kəsilmək, yaddaşını silmək və manqurta çevirmək idi. Çingiz Aytmatov imperiyanın məlum addımlarını bədii planda uğurlu şəkildə işləmişdir. 30-cu illərin məlum repressiyasının hansı məqsədlə törədildiyi bəllidir. İnsanın şəxsiyyətə çevrilməsi onun fərdi, özünəməxsus keyfiyyətlərinin inkişafının nəticəsidir. Sovet imperiyasının qurulandan bəri məqsədi insanları özünəməxsus, fərdi keyfiyyətlərdən məhrum etmək, öz ideoloji qəliblərinə uyğun standart insanlar formalaşdırmaqdan ibarət olmuşdur”* (Hasanli, 2021, p. 42).

1930-cu illəri imperiyada yaşayan digər xalqlar kimi, türk xalqları da oxşar şəkildə, fəci formada yaşamalı oldular. Milyonlarla insanı günahsız yerə ölümə sürükləyən bu amansız dalğa, törədilən cinayətlər çox sonralar, 1980-ci illərdən başlayaraq bədii ədəbiyyatın materialına çevrilməyə başladı. Bayaq qeyd etdiyimiz “Gün var əsrə bərabər” romanı bu prosesin ciddi başlanğıc nöqtəsidir. Məhz bu romanla Çingiz Aytmatov repressiya mövzusunu gündəmə gətirdi və manqurtlaşma anlayışı ilə sovet imperiyasının mahiyyətinə bədii qiymət verdi.

Ümumiyyətlə, türk xalqları romanında məhz 1930-cu illərə baxış müstəvisində ciddi transformasiya prosesləri getmişdir. Türk xalqlarının Orta Asiyanın ucu-bucağı bilinməyən bozqırında yaşayan qazaxların 1930-cu illərdə yaşadıqlarının, başlarına gətirilən faciələrin ciddi roman mətnləri kimi 1980-ci illər ədəbiyyatında yazılmağa başlandı. Smaqul Elubayın “Ağ çadır” romanı qazax həyatında arzuolunmaz dəyişikliyə, aclığa və ölümlərə səbəb olan 1930-cu illərin mahiyyətini açan, səbəblərini bütün tərəfləri ilə göstərən nəsr nümunələrindən biridir. *“Roman o dövrdə SSRİ rejiminin qazaxlara qarşı apardığı siyasət nəticəsində qazaxların məcburi köçü və bu köç yolunda üzləşdikləri çətinliklərdən bəhs edir”* (Kızıl, 2019, s. 12).

Daha çox şifahi bədii düşüncə sistemi ilə bağlı istifadə olunan xaos və kosmos anlayışlarının mifik yaddaşdan yazılı mətnə proyeksiyası və ya həmin anlayışların mətndə intertekst və alluziya

kimi çıxış etməsi çağdaş yaradıcı proses üçün qəbul edilən bir prinsipdir. Müxtəlif mifoloji mətnlərdə dünyanın ilkin xaos başlanğıcından nizama, kosmosa keçməsi və nəticədə yaşadığımız dünyanın yaranması ilə bağlı yaradılış mətnləri vardır. *"Hər hansı mifoloji sistemin özülündə dayanan kosmoqonik miflərdə, yaradılış aktı, dünyanın necə yaranması təsvir olunur. Bütün etnik mədəni sistemlərdə, etnosların yaratdıqları kosmoqonik miflərdə bir ilkin başlanğıc kimi xaos götürülmüşdür. Bir etnos üçün həmin başlanğıc boşluq olmuş, digər biri üçün qaranlıq zülmət, birbaşqa ənənə üçün isə strukturyaradıcı sayılan su olmuşdur. İlkin su xaosla eyniləşdirilir"* (Bəydili, 2004, s. 81).

Xaos-kosmos-xaos keçidlərində dünyanın yarandığı ilkin başlanğıca geri dönəcəyi ilə bağlı inam ifadə olunmaqdadır. *"Xaosdan kosmosun yaranmasını ifadə edən mətnlərədə dünyanın sudan, sonsuz qaranlıqdan yaranması və nizamlı şəklə düşməsi daha sonra yenidən bir səbəblə əbədi suya və qaranlığa qərq olacağından bəhs edilir"* (Qarayev, 2011, s. 85).

Məqalədə mifoloji kontekstdə qavranılan xaos-kosmos-xaos üçlü mərhələnin sonuncu iki mərhələsi Smaqul Elubayın "Ağ çadır" romanına proyeksiya edilərək araşdırılmışdır. Romanda şərti olaraq xaosdan kosmosa keçid mərhələsi tamamlanmış, mətn kosmos mərhələsi ilə, yəni Fəxrəddinin ağ çadırının aulda qurduğu nizamla başlamışdır. Fəxrəddinin çadırının yıxılması və yerinə bolşeviklərin qızıl çadırının keçməsi ilə xaos başlanır və nəticədə baş verən aclıqda çoxlu sayda insan, o cümlədən Fəxrəddin və onun ailəsi həyatını itirir.

## Əsas hissə / *Main Part*

1980-ci illərdə yaranan yeni tarixi vəziyyət, imperiyanın çöküşünün labüdlüyü yerli xalqlarda, xüsusən də imperiyanın tərkibinə dövlət subyekti kimi daxil olan respublikalarda canlanmaya səbəb oldu. İmperiya milli fikrin oyanışına amansız reaksiya verdi. Qazaxıstandakı Jeltokson hadisələri, Azərbaycanda 20 Yanvar qırğını və digər bu kimi hadisələr sovetizmin iç üzünü açan, onun xalqların hüquq və azadlıqlarına, öz milli varlıqlarının ifadəsinə qarşı nə qədər amansız olduğunu göstərirdi. Bədii ədəbiyyat bu prosesləri təkcə "güzgü effekti" ilə əks etdirən struktur vahidi kimi deyil, hadisələrin inkişaf istiqamətlərini müəyyən edən, bir çox hallarda generator funksiyasını icra edirdi. Bu dövrdə bir çox türk xalqlarında olduğu kimi, qazax ədəbiyyatında, romançılığında da əsas diqqət, fokus məhz 1930-cu illərə ayrılmışdır. Bu baxımdan Smaqul Elubayın "Ağ çadır" və Rollan Seysenbayevin "Qaçış" əsərləri qazax romançılığının mükəmməl nümunələridir. "Ağ çadır" romanında Qazaxıstanda 1928-1933-cü illərdə baş verən aclıqdan bəhs olunmuşdur. *"Smaqul Elubay kimi usta yazarın qələmində gerçək tarix ədəbi bir kimliyə bürünərək ölümsüzləşmişdir"* (Kınacı , 2010, p. 75).

Daha çox mifoloji kontekstdə qəbul edilən xaos və kosmos anlayışlarının real müstəviyə inteqrasiyasını, yazılı mətnlərdə funksionallıq qazanmasını "Ağ çadır" romanının timsalında aydın şəkildə müşahidə edə bilərik. Yazıçı bozqırdakı bir qazax aulunun, kəndinin timsalında kiçik bir dünyanın modelini yaradıb. Romanda Fəxrəddin bəyin ağ çadırı kosmosun, bolşeviklərin qurduğu qızıl çadır isə xaosun ifadəsinə çevrilərək iki əks qütbü təşkil etməkdədirlər. Yazıçı mövcudluq uğrunda mübarizə kontektsində bu iki fərqli yanaşmanı nizam və anti-nizam kimi iki əks qütblər olaraq təsvir edir. Dolayısı ilə, *"xaosun tərkibində nizamın mövcudluğunu, eyni zamanda kosmosda xaotikliyə meyilliliyin olmasını və onlar arasında qarşılıqlı keçidin mümkünlüyü fikri"* (Hasanli, 2022, p. 35) inkar olunur.

Məkan ağırlıqlı, hadisələrin baş verdiyi coğrafi yerin əsas götürüldüyü "Ağ çadır" romanında 30-cu illərdəki aclıq və onun törətdiyi fəsadlar əsas ideya olaraq seçilmişdir. Fəxrəddin bəy və onun ağ çadırının ətrafında təbii şəkildə birləşən, onun rəhbərliyini qəbul edərək yaşayan qazax aulunda hər şey bir nizam üzrə davam etməkdədir. Fəxrəddin bəy sovet imperiyasının öz ideoloji vasitələri ilə bu coğrafiyaya daxil olmasına qədər sabit idarəetmə modelinin, kosmosun timsalıdır. Müəllif sovet dövründə demək olar ki, hər zaman pislənən, ideoloji olaraq hədəf seçilən bəyi və bəyliyi ədalətin, nizamın ölçüsü kimi təqdim etmişdir. Fəxrəddin bəy romanda ədalətli, hər kəsə kömək edən, gözütox, yüksək ailə dəyərlərinə malik və savadlı bir şəxsiyyət kimi təsvir edilmişdir. Hər şey kənddə

Şaripin əlinə möhür alıb *"hökumət yoxsullarındır"* (Elubay, 2015, s. 4) elanından sonra kəskin dəyişməyə başlayır.

Fəhlə-kəndli hökuməti adlanan sovet hökumətinin və onun kommunist ideologiyasının bölgəyə gəlişi xaotik situasiya yaradır. Yoxsul adı ilə qarətçilər, acgözlər hər şeyi əlinə keçirməyə, oğurlamağa və şər-böhtan atmağa başlayırlar. Romanda ilk belə toqquşma Fəxrəddinin qardaşı Ezbergenin Kozbağırı döyməsi ilə başlayır. Uapoğlu ailəsinin niyyəti isə belə bir məqamda yoxsul adı ilə şikayət edib Ezbergeni Sibirə sürgün etdirməkdir. *"İdarəetmə yoxsulun əlində. Yoxsul kim? Yoxsul Kozbağır. Belə olduqda, Ezbergenin Kozbağıra əl qaldırması hökumətə əl qaldırmaq, ona qarşı çıxmaq deməkdir. Elə yaz...."* (Elubay, 2015, s. 34)

Yaranan yeni xaotik situasiya aul insanlarını köç etmək məcburiyyəti ilə qarşı-qarşıya qoyur. Didərginlik, xaosdan qaçma cəhdləri "Ağ çadır" romanının kompozisiyasının mərkəzində duran motivdir. Müəllif romanında sonuna qədər öz milli-etnik kimliyinə sadiq qalaraq, öz yaşadığı coğrafiyanın, xalqının tarixini bədii planda yaratmışdır. "Ağ çadır" romanı qazax çölünün, bozqırının romanıdır. Yazıçı xalqın etnoqrafik cizgilərini, özünəməxsus yaşayış tərzini ən xırda detallarına qədər təsvir etməkdən çəkinməmişdir. Ucsuz-bucaqsız bozqırda dəvə insanın ən yaxın dostu, sirdaşıdır. "Gün var əsrə bərabər" romanındakı Qaranər kimi, burada da Şoyınkarın bütün ruhu, mahiyyəti ilə insana nə qədər gərəkli olduğu aydınlaşır. Yazıçı sərt şaxtada, qarda Şoyınkarın necə fədakarlıq göstərdiyini təsvir edir.

Sovet imperiyası qurulduqdan uzun illər sonra da köçəriliklə mübarizə aparmışdır. Köçəri həyat tərzi istər-istəməz insanların azadlığını, sərbəstliyini təmin edirdi. Bu cür insanları qəlib ideologiyaya salmaq çətin olurdu. Üstəlik dağı-daşı, yolları yaxşı tanıdıqları üçün onların istəklərinə qarşı çıxıldıqda üsyana qalxır və bu kimi üsyanları yatırmaq heç də asan olmurdu. "Ağ çadır" romanında da bozqırda köçəriliyə qarşı aparılan mübarizə, insanları oturaq həyata keçirərək öz ideyaları naminə sonrakı amansız aclıqla üz-üzə qoymaları bütün cəhətləri ilə əks edilmişdir. Eyni motiv digər tanınmış qazax yazıçısı Rollan Seysenbayevin "Qaçış" romanında da vardır.

Əvvəlcə, sovet hökumətinin kəndə gəlişi Şarip və onun möhürü ilə bilinirdisə, sonradan bu proses genişlənir və "qızıl çadır" qurularaq, kənddə böyüyən gənclərin bolşevik təfəkkürü ilə yetişdirilməsinə, əslində isə mənfi mənada dəyişdirilməsinə başlanılır. Yeni kommunist ideologiyalı gənclərin və onlara əmr verənlərin əsas mübarizəsi keçmişlə, əslində xalqın özü ilə olmuşdur. Onlar keçmişdən qalan nə vardısa məhv etməyi qarşılarına məqsəd qoymuşdular. *"Qədimin və qədim adətlərin kökünü qurudacaq vaxt gəlmişdir. Bunu etmədən biz yeni həyata qovuşa bilməyəcəyik. Əski adətlər bizim üçün pusquya çevrilmişdir"* (Elubay, 2015, s. 94).

Romanda Fəxrəddin bəy kommunizm adına aparılan təbliğatın və təbliğatın yetişdirdiyi gəncliyin, təfəkkürün xalqı uçuruma aparacağını hiss edirdi. Smaqul Elubayın "Ağ çadır" romanı sovet dövründə təkcə Qazaxıstanda deyil, ümumilikdə işğal altına düşən türk xalqlarında nüfuzlu bəylər əleyhinə aparılan siyasətin mahiyyətini ifadə edən uğurlu nəsr nümunələrindən biridir. Yaşadığı bölgənin bəylərindən biri olan Majanın varlı deyə ittiham edilərək həmyerliləri tərəfindən sürgünə göndərilməsi, sürgünə göndərilərkən öz soydaşları tərəfindən evinin acgözlüklə qarət edilməsi Fəxrəddin bəyin millətin geridönüşü çətin olan bir yola daxil olduğu qənaətinə gəlməsinə səbəb olmuşdur. *"Bu millət düzəlməz, düzəlməz. Bundan sonra belə şeylər görəcəyiksə, öz nəslimizin nümayəndələri özümüzünkünü didişdirəcəksə, biz bədbəxt olmuşuq deməkdir"* (Elubay, 2015).

Müəllif polis Boğabayın timsalında yeni qurulan sistemin təkcə ədalətsizliyinə deyil, xaraktersizliyinə, mənəvi kasadlığına da diqqət çəkməkdədir. Yeri gəldi-gəlmədi insanları şantaj edən, "kulak"la hədələyən Boğabay mənfi mənada insanlarda gedən dəyişməni, şərin xeyri üstələməsini, nəticədə xaosa sürüklənməni göstərən faktlardandır.. Evində tək olarkan Balkıyanın evinə soxulan Boğabay istəyinə çatmadığını görüb ondan qızıllarını tələb edir. İstədiklərini yerinə yeirməyəcəyini görüb onu "kampesk"ə qarşı çıxması ilə hədələyir, onu sürgünə göndərəcəyini bildirir. Qanun yaratmaq adıyla əslində quldurluq edir.

Müəllif yeni sistemin yoxsulların adı altında nadanlığın, naqisliyin hökuməti olduğunu çəkinmədən bəyan edir və bu kontekstdə xalqını, millətini düşünən Fəxrəddinin bəyliyi nizamın, ədalətin simvoluna çevrilir. Bəylərin və bəyliyin sıradan çıxarılması xalq arasında nüfuzu, hörməti olan insan-

ların aradan qaldırılması demək idi. Romanda bəylərin yoxsullaşması, onların doğma yurdlarından didərgin salınması 30-cu illərdə Qazaxıstanda geniş vüsət alan, milyonlarla insanın ölümünə səbəb olan aclığın səbəbi kimi təqdim edilmişdir. Müəllif çəkinmədən bəyliyi milli varlığın simvolu kimi təqdim edir, onların yerinə gələnlərin isə yoxsulların müdafiəçisi adı altında, əslində, acgöz və talançılar olduğunu bəyan edir.

Bolşeviklərin hökuməti qurmaq adı altında kəndə gəlməsi burada xaosa səbəb olur və aul üçün geridönüşü mümkün olmayan bir yol başlayır. Ezbergen, Xansulu və Balkıya, daha sonra Fəxrəddinin özü də buranı tərk etmək məcburiyyətində qalır. Onlar mümkün qədər buradan uzaqlaşaraq özlərinə yeni bir yurd salırlar. Burada öz həyatlarına davam edirlər. Lakin hökumət mənsubları burada da onları rahat buraxmır. Günün birində əlində silahlarla onların çadırlarının qarşısında peydə olurlar. Nəticədə yenə də nizam pozulur, yenidən başqa bir köç başlayır. *"Hökumət önümüzdəki malımızı, ağzımızdakı duamızı, köçüb yaşayarkən azadlığımızı əlimizdən alıb. Qazaxlar üçün bundan o tərəfə nəsə qalıbmı?"* (Elubay, 2015, s. 123)

Yeni hökumət təkcə onların mallarını əlindən almırdı, həm də keçmişdən qalan nə var idisə, inanc, adət-ənənələrini də yox etmək üçün əlindən gələni edirdi. Romanda Ahu nata obrazı xalqın keçmişini, adət-ənənəsini qoruyan müdirik qoca kimi yazıçı tərəfindən çox uğurla əsərə daxil edilmişdir. Belə ki, o, ağsaqqal vəzifəsini yerinə yetirməklə yanaşı, həm də xalqın varlığını, onun adət-ənənələrini, əfsanə və rəvayətini, inanclarını qoruyan simvol kimi çıxış edir. Fəxrəddin bəy və onun ailəsinin köç zamanı Barak ata türbəsində dayanaraq dua edilməsi xalqın özünə, kimliyinə, keçmişinə sadiqliyinin göstəricisidir. Müəllif bu məqamları romana daxil etməklə, 1920-ci illərdən etibarən aparılan siyasətin təkcə iqtisadi əsaslı deyil, eyni zamanda milli mahiyyət daşıyaraq xalqın özünə qarşı yönəldiyini uğurla göstərmişdir.

Yeni rejim xalq arasında əvvəllər müşahidə edilməyən qəribə qorxular yaratmışdı. Bir-birindən şübhələnən insanlar, daim bir-birini satmağa hazır olanların artması yeni quruluşun gətirmiş olduğu "yeniliklər"dən idi. *"Hansı kəndə gedirsənsə get, "plan, plan!" deyərək, təlaş içində tələsən biriləri var idi. Axşam olanda bitmək bilməyən toplantılar olurdu. Müzakirələr, çəkişmələr bitmək bilmirdi. Biri "qulak", biri "birinin oyuncağı", biri "ırgat" olub həmişə mübahisə edirdilər"* (Elubay, 2015, s. 154).

Kəndə yeni anlayış kimi daxil olan "kulak" anlayışının təyinatını kəndlilər özləri də bilmirdilər. *"Qızıl çadır"da "öyrədilən" gənclərin durmadan dilində səslənən bu anlayışın kimə aidliyi şübhəliydi. "Hansımız "kulak" ola bilərək əcaba deyən millət qorxu içində təlaşlanırdı"* (Elubay, 2015, s. 171).

Roman mətninin kuliminasiya nöqtəsini hələ yeniyetmə yaşlarından "qızıl çadır"da kommunist dərsləri alan, yeni hökumətin qurulması üçün özünü od-alovun qarşısına atan Şegenin bir zamanlar bəy olan Fəxrəddinin qızı Xansulunu alması, evində qızıl saxlamasını (Bu qızılı anası Xansuluya vermişdi və Şegenin bundan xəbəri belə yox idi) özündə ifadə edən məktubun göndərilməsi ilə başlayır. Şege Xansulunun çox sevməsinə rəğmən onun atası ilə bağlı keçirilən toplantıda öz qaynatasını ittiham edərək onun öz yurdundan didərgin düşməsinə belə razılıq vermişdi. İnandıqlarının bir gün onun özünü bada verəcəyini ağlına belə gətirməmişdi. "Bir qrup aktiv fəhlə"dən göndərilən şərləmə məktubunda daha sonrakı illərin, repressiyanın qoxusu hiss olunmaqda idi. Bütün fəaliyyətlərin rəğmən bu məktuba görə Şegenin həbs edilməsi rejimin avtoritar mahiyyətinin və bu mahiyyətə uyğun cəmiyyətdə münasibətlər sisteminin qurulmasının ifadəsi idi. İnandığı ideya naminə Fəxrəddin bəyi güdaza verən Şegeni rejim şərləyərək həbs edir. Hər kəsin yaxşı bilib qəbul etdiyi Fəxrəddini Şege məhz təbliğatın nəticəsində günahkar olduğuna inanır. İttiham kürsüsündə olarkən Kalaşnikovun ona qarşı səsləndirdiyi fikirlərin get-gedə doğru olması qənaətini özündə formalaşdırır. Rejimin qəddarlığı insanı ədalətsizliyi ədalət kimi qəbul etməsinə, buna inanmasına səbəb olur.

"Ağ çadır" məkan və zaman ağırlıqlı romandır. Burada əsas qəhrəmanlar da zaman və məkanın özüdür. Əsərdəki fəsil başlıqları da bu baxımdan təsadüfi seçilməyib. "Quyu başında", "Sıra dağlar üzərindəki köç", "Qızğın yay", "Qum arasında" və "Arasat meydanı" kimi başlıqlar zamanı və məkanı ifadə edən başlıqlardır.

Vətəni tərk etməyə, Əfqanıstana getməyi qərarlaşdıran Fəxrəddin bəy, yenə də ona arxadan gəlib çatan hökumət nümayəndələrinin dəvəti ilə geriyə, vətənə qayıtmağa qərar verir. Xansulu üçün bu, dəhşətli, qeyri-müəyyən bir məqam idi. Yurda çatdıqlarında tərk edilmiş evlər, insansız kəndləri

gördükcə aclığın dəhşəti, bir zamanlar abad olan məkanın xarabalığa çevrilməsi onu dəhşətə gətirirdi. *"Arxasında təpə altında bir məzar kimi tərk edilən, sahibsiz kənd qalmışdı. Önündə isə toz içində, dumanlı, qeyri-müəyyən bir üfüq, məchul bir tale var idi"* (Elubay, 2015, s. 238).
Roman acınacaqlı sonluqla bitir, yurduna qayıdan Fəxrəddin bəy öz arvadı ilə birlikdə aclıqdan ölür və bu dəhşətli situasiya 1930-cu illər qazax xalqının taleyini, başından keçənləri ifadə edən məqamdır.

## Nəticə / *Conclusion*

Tanınmış qazax yazıçısı Smaqul Elubayın 1983-cü ildə tamamladığı "Ağ çadır" romanı milyonlarla qazaxın ölümünə səbəb olan aclığın və onun səbəblərinin təqdim olunduğu qazax ədəbiyyatının, romanının ən yaxşı nümunələrindən biridir. 1980-ci illərdə qazax romanında baş verən transformasiya, dəyişmə modusunda "Ağ çadır" özünəməxsus yer tutan və bu yeni dalğanın mahiyyətini ifadə edən roman nümunəsidir.

1980-ci illər qazax romanı digər zaman kəsimlərindən fərqlənən, özünəməxsus keyfiyyətləri ilə seçilən dövr kimi xarakterizə oluna bilər. Təbii ki, bu, ilk növbədə, sovet imperiyasında baş verən ümumi proseslə birbaşa bağlı idi. Yenidənqurma dövrü adlanan bu zaman kəsimində qazax romanında tarixilik aparıcı xətt kimi yer tutmaqdadır. Uzun illər boyu qadağan edilən, milli yaddaşını ifadə edən nəsr nümunələri bu dövrdə aparıcılıq qazanmağa başladı. Rollan Seysenbayevin "Qaçış", "İblisin taxtı", Smaqul Elubayın "Ağ çadır" romanları isə məhz sovet dövründə baş verən hadisələrə həsr olunmaqla mahiyyətindəki tənqidi məzmunu ilə diqqəti cəlb etmişdir.

## Ədəbiyyat / *References*

Bəydili, C. (2004). Xaos anlayışı mifologiyada. *Ortaq türk keçmişindən Ortaq türk gələcəyinə II Uluslararası folklor konfransının materialları.*

Elubay, S. (2015). *Arasat meydanı.* Ankara: Bengü.

Hasanli, M. (2021). Chingiz Aitmatov's novelsin the context of intertextual connections. *Comparative Literature*, 41-45. Retrieved from http://cljournal.az/index.php/files/article/view/25

Hasanli, M. (2022). The conception of Khaosmos in the novel "Cassandra's Brand" by Chingiz Aitmatov. *Comparative Literature*, 35-39. Retrieved from http://cljournal.az/index.php/files/article/view/11/5

Kınacı , C. (2010, eylül). Kazak Yazar Smagul Elübay'ın Arasat Meydanı (Ak Boz Üy) Romanı Hakkında Bir Değerlendirme. *Kardeş kalemler*, 74-75. Retrieved from https://www.academia.edu/29247192/_2016_Kazak_Yazar_Smagul_El%C3%BCbay%C4%B1n_Arasat_Meydan%C4%B1_Ak_Boz_%C3%9Cy_Roman%C4%B1_Hakk%C4%B1nda_Bir_De%C4%9Ferlendirme_Karde%C5%9F_Kalemler_Y%C4%B1l_10_Say%C4%B1_117_Eyl%C3%BCl_s_74_75

Kızıl, M. (2019). *SMAGUL ELUBAY'IN AK BOZ ÜY ROMANINDAKİ SÖZ VARLIĞI.* Bu https://acikbilim.yok.gov.tr: https://acikbilim.yok.gov.tr/bitstream/handle/20.500.12812/425663/yokAcikBilim_10286201.pdf?sequence=-1&isAllowed=y mənbədən tapılıb

Qarayev, S. (2011). TÜRK MİFOLOJİ DÜŞÜNCƏSİNDƏ DÜNYANIN YARADILIŞI (MONOMİFOLOJI BAXIMDAN XAOS-KOSMOS). *Motif Akademi Halkbilimi Dergisi*, 180-186. Bu https://dergipark.org.tr/tr/download/article-file/288536 mənbədən tapılıb

# СМЕНА КОСМОСА НА ХАОС В РОМАНЕ СМАГУЛА ЭЛУБАЯ «ОДИНОКАЯ ЮРТА»

**Мехман Гасанли**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: m.hasanli@lit.science.az
ORCİD: https://orcid.org/0000-0003-3036-2646

**Резюме.** Историю романистики Казахстана 1980-х годов с точки зрения трансформации жанра следует характеризовать как значительный период. Политика перестройки и неизбежный распад советской империи способствовали созданию серьёзных предпосылок для выхода на арену литературы, в особенности романистики, новой исторической ситуации. Роман Смагула Элубая «Одинокая юрта» один из значительных образцов прозы этой эпохи с точки зрения изменения формы и содержания в казахской романистике. На первый план в романе Смагула Элубая художественно выведены голодные годы, наступившие в 1928-1933 годах в Казахстане, и вызвавшие их причины. Писатель с большим мастерством показывает причины, создавшие голод, и изъяны нового советского правления, начавшего утверждение жёсткой идеологии. К исследованию привлечён показ Смагул Элубаем смены имеющегося правления на образовавшуюся новую большевистскую систему советской империи, что привело к хаосу и явилось причиной образовавшегося голода и противоборству прежней феодальной системы с новой большевистской, и в результате к победе беспорядка и хаоса над порядком и космосом. В исследовании представлено олицетворение космоса в образе Фахраддин бека и его белого шатра, а хаоса – с красным шатром примкнувшего к большевистскому движению Шарипа.
Роман «Одинокая юрта» Смагула Элубая сыграл значимую роль в казахской литературе 1980-х годов и в прозе тюркских народов целом и послужил образованию новых тенденций.
**Ключевые слова:** Смагул Элубай, «Одинокая юрта», роман, хаос, космос